


**Avropa İttifaqının Azərbaycan Respublikasında nümayəndəliyi**
Ləndmark III, 11-ci mərtəbə
Nizami küçəsi 90A
AZ 1010 Bakı, Azərbaycan
Tel: +994 12 497 20 63
Faks : + 994 12 497 20 69
E-poçt : Delegation-Azerbaijan@eeas.europa.eu
Rəsmi internet səhifəsi:
www.eeas.europa.eu/delegations/azerbaijan

**Rezident Tvininq Məsləhətçisinin (RTM) Ofisi**
Cənab Reijo Aholainen – RTM
Aytac Atakişiyeva – RTM köməkçisi
Tərlan Arzumanov – Tərcüməçi
Təhsil Nazirliyi, Xətai prospekti 49
AZ1008 Bakı, Azərbaycan
Tel: +994 12 599 11 55 (ext. 5229; ext. 5145)
E-poçt: aholare1@gmail.com;
aytajatakishiyeva@gmail.com
arzumanov.t@gmail.com
Rəsmi internet səhifəsi: http://www.ehea.edu.az/

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Cənab Tofiq Əhmədov – RTM tərəfdaşı
Təhsil Nazirliyi, Xətai prospekti 49
AZ1008 Bakı, Azərbaycan
Tel: +994 12 599 11 55 (ext. 5113)
E-poçt: tofig.ahmadov@edu.gov.az
Rəsmi internet səhifəsi: www.edu.gov.az



*Sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Sənədin məzmununa görə Tvinninq layihəsi məsuliyyət daşıyır və sənəd Avropa İttifaqının mövqeyini əks etdirmir.*


**"Avropa ittifaqı öz biliklərini, resurs və müqəddəratını tədricən bir-birinə bağlamağa qərar vermiş 28 Üzv Dövlətdən ibarətdir. İttifaqın 60 il genişləndiyi bir dövrdə bu ölkələr sabitlik, demokratiya və davamlı inkişaf yolunu birgə qurmuş, eyni zamanda öz mədəni müxtəlifliyini, tolerantlıq və azadlığını qoruyub saxlamışlar.**

**Avropa İttifaqı nailiyyət və dəyərlərini öz sərhədlərindən kənarda olan ölkələr və xalqlar ilə bölüşmək niyyətində ciddidir."**

**Bu Tvininq layihəsi Finlandiya Təhsilin Qiymətləndirilməsi Mərkəzi, Estoniyanın Ali və Peşə Təhsilində Keyfiyyətin Təminatı üzrə Agentlik və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Layihənin büdcəsi 1.3 milyon avrodur və Avropa İttifaqı tərəfindən maliyyələşdirilir.**


**Layihə Aİ tərəfindən maliyyələşir**




**AQTA çərçivəsində 2011-ci il üçün Azərbaycan üzrə İllik Fəaliyyət Proqrmı**

# TVİNNİNQ LAYIHƏSİ

## "Ali təhsil sisteminin Avropa ali təhsil məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinə dəstək göstərilməsi"

AZ/14/ENP/OT/31



## Ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinə dəstək göstərilməsi layihəsi

**Artıq birinci ilini uğurla başa vuran AATM Tvinninq layihəsi tam sürətlə irəliləməkdədir.** Layihə çərçivəsində ali təhsil sahəsindəki cari vəziyyət araşdırılmış və Azərbaycan Respublikasının ali təhsil müəssisələrindən olan 550 nəfər müəllim, rəhbər şəxs və eləcə də ölkənin Təhsil Nazirliyini təmsil edən təhsil mütəxəssisləri seminar və təlimlərə cəlb olunmuşdur. Təlimlər keyfiyyət təminatı sahəsində bilik və bacarıqların artırılması, təlim nəticələrinin qiymətlən-dirilməsi və kvalifikasiyalar çərçivəsinin qəbul edilməsi kimi mövzuları əhatə edib. 2016-cı ilin iyun ayında Helsinki və Tallin şəhərlərinə edilmiş bir həftəlik tədris səfəri azərbaycanlı mütəxəssislər üçün keyfiyyət təminatı sahəsində təşkil olunan təlimlərin bir hissəsi hesab oluna bilər. Layihənin internet səhifəsi (www.ehea.edu.az) Avropa Ali Təhsil Məkanı barədə məlumat verməklə yanaşı ali təhsil müəssisələri arasında və bu müəssisələrin daxilində şəbəkələşməni təşviq edir.

### *Aİ-Azərbaycan AATM Tvinninq layihəsinin ikinci ilində əldə olunacaq nəticələri*

**Layihənin ikinci ilində qarşıya qoyulan əsas məqsəd Avropada mövcud keyfiyyət alətlərinin Azərbaycanın ali təhsil sisteminə daxil edilməsinə dair tövsiyələrin işlənib hazırlanmasıdır.** Tövsiyələr milli standartlar və təlimatlar, keyfiyyətin artırılmasına istiqamətlənmiş qiymətləndirmə, tədqiqat əsaslı tədris, təlim nəticələri və milli kvalifikasiyalar çərçivəsi kimi mövzuları əhatə edəcəkdir. Layihə çərçivəsi kimi mövzuları əhatə edəcəkdir. Layihə akkreditasiya və keyfiyyət təminatı kimi sahələrin inkişaf etdirilməsi istiqamətində yeni yaradılmış Akkreditasiya və Nostrifikasiya İdarəsi ilə sıx əməkdaşlıq edir. Eləcə də Azərbaycanın Milli Kvalifikasiyalar Çərçivəsi (AzKÇ) təsdiqlənməsi məqsədi ilə nəzərdən keçirilmək-dədir. Hal-hazırda beynəlxalq əməkdaşlıq və ali təhsil islahatları sahəsində kommunikasiya, şəbəkələşmə və koordinasiyanın təkmilləşdirilməsi üçün nəzərdə tutulan institusional tədbirlərə dair tövsiyələr hazırlanmaqdadır.



**Dörd sahə üzrə konkret nəticələr:**

- **Azərbaycanın Ali Təhsil Sistemində Keyfiyyətin Təminatı üzrə Standartlar və Təlimatların müvafiq Avropa Standartları və Təlimatlarına uyğun olaraq hazırlanması** və Azərbaycanın universitetlərində sınaqdan keçirilməsi.
- Azərbaycanın Milli Kvalifikasiyalar Çərçivəsində ali təhsil sisteminə aid bölmələrin Avropanın **Ali Təhsil Sahəsində Kvalifikasiyalar Çərçivəsinə uyğun olaraq işlənib hazırlanması.**
- Avropanın qabaqcıl təcrübəsi əsasında Təhsil Nazirliyi, ali təhsil müəssisələri və digər maraqlı tərəflər arasında **koordinasiya və şəbəkələşmə potensialının artırılması.**
- Azərbaycanda keyfiyyət təminatı və ali təhsil sahələri üzrə **qanunvericiliyin yaradılması məqsədi ilə konkret tövsiyələrin işlənib hazırlanması.**

TWINNING

Bundan əlavə, **Tvinninq layihəsi çərçivəsində azərbaycanlı mütəxəssislərlə birlikdə Azərbaycanın Ali Təhsilində Keyfiyyətin Təminatı üzrə Standartlar və Təlimatlarla (AzST) bağlı tövsiyələr** işlənib hazırlanmaqdadır. 2016-cı ilin payızında özünüqiymətləndirmənin həyata keçirilməsi məqsədi ilə layihə tərəfindən pilot universitetlər üçün təlimlər təşkil olunacaq. 2017-ci ilin payızında azərbaycanlı və avropalı mütəxəssislərdən təşkil olunmuş qiymətləndirmə qrupları AzST adlı sənəd layihəsinə əsaslanaraq sınaq qiymətləndirmələr həyata keçirəcəklər. Pilot universitetlərdə aparılan qiymətləndirmə təcrübəsinə əsaslanaraq fin, eston və azərbaycanlı mütəxəssislər tərəfindən Azərbaycanın Ali Təhsilində Keyfiyyətin Təminatı üzrə Standartlar və Təlimatlarla bağlı yekun tövsiyələr işlənib hazırlanacaqdır.

**Aİ-Azərbaycan Tvinninq layihəsi barədə qısa arayış:Hədəf:**
AATM-ə inteqrasiyanı gücləndirməklə Azərbaycanın ali təhsil sisteminin inkişafına nail olmaq.
**Məqsəd:** Təhsil Nazirliyi və ali təhsil müəssisələrinin institusional potensialını artırmaq.
**Layihənin tərəfdaşları:** Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Finlandiyanın Təhsilin Qiymətləndirilməsi Mərkəzi (FİNEEC) və Estoniyanın Ali və Peşə Təhsilində Keyfiyyətin Təminatı üzrə Agentliyi (EKKA).
**Büdcə:** Aİ tərəfindən maliyyələşdirilən layihənin ümumi büdcəsi 1.3 milyon avro təşkil edir. Layihə çərçivəsində fin və eston ekspertlərin Azərbaycana səfər etməsi üçün 470 ekspert günü, öz növbəsində azərbaycanlı ekspertlərin Aİ-yə üzv ölkələrə tədris səfərləri və bu ölkələrdə təcrübə proqramında iştirakları nəzərdə tutulub.
**Müddəti:** 2015-ci ilin sentyabr ayından 2017-ci ilin avqust ayına qədər olan müddəti əhatə etməklə iki il.

**Layihənin aparıcı simaları:**

- **Layihə rəhbərləri:** Finlandiyanın Təhsilin Qiymətləndirmə Mərkəzini təmsil edən Helka Kekäläinen, Estoniyanın Ali və Peşə Təhsilində Keyfiyyətin Təminatı üzrə Agentliyini təmsil edən Heli Mattisen, və Azərbaycan Respublikasının Təhsil Nazirliyini təmsil edən Emin Əmrullayev.
- **AATM Tvinninq layihəsinin ofisi:** Rezident Tvinninq Müşaviri Reijo Aholainen; RTM asistenti Aytac Atakişiyeva və tərcüməçi Tərlan Arzumanov.
- **RTM-in tərəf müqabili:** Azərbaycan Respublikasının Təhsil Nazirliyini təmsil edən Tofiq Əhmədov.
- **Layihənin İdarəedici Komitəsi** layihə tərəfdaşları, Aİ-nin Bakı nümayəndəliyi, Layihə İdarəetmə Qurumunun nümayəndələri və RTM-dən təşkil olunub